# Azərbaycan-latış ədəbi əlaqələrində Nizami Gəncəvi: biblioqrafik baxış

**Zakirə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan
E-mail: zakiraalieva@rambler.ru

**Annotasiya.** Azərbaycan və Latviya torpaqları bir-birindən uzaqlarda yerləşir. Lakin ərazi uzaqlığına baxmayaraq, Azərbaycan və latış xalqları arasında yüzillərin sınaqlarından çıxmış bir yaddaş tarixi var olmaqdadır. Azərbaycan və latış xaqllarının ictimai-siyasi, tarixi taleyində bir sıra oxşar cəhətlər mövcuddur. Əsrlər boyu davm edən müharibələr, yadelli işğalçılara qarşı qəhrəmanlıq vuruşmaları, doğma dil və milli mədəniyyət uğrunda mübarizələr - bütün bunlar hər iki xalqın həyatında xas olan və taleləri ilə bağlı olan oxşar cəhətlərdir. "Karogs" dərgisi Azərbaycan–latış ədəbi əlaqələrinə verdiyi töhfələrlə diqqəti cəlb edir. Nizami Gəncəvinin həyat və yaradıcılığna dair yazlar daha çox bu dərgidə işıq üzü görmüşdür. Dərginin 1947-ci il birinci sayında Nizami Gəncəvinin "Leyli və Məcnun", "İsgəndərnamə", Sirlər xəzinəsi" poemalarında parçalar və qəzəllərindən bir neçəsi E.Layitis tərəfindən tərcümə olunaraq çap edilmişdir. Dərginin 1947-ci il birinci sayında Nizami Gəncəvinin "Leyli və Məcnun", "İsgəndərnamə", Sirlər xəzinəsi" poemalarında parçalar və qəzəllərindən bir neçəsi E.Layitis tərəfindən tərcümə olunaraq çap edilmişdir. Ədəbiyyatşünas, alim, publisist Andris Vejansın Nizami Gəncəvi yubileyində iştirak edən latış nümayəndə heyətinin tərkibində Azərbaycanda olmuşdur. 1930-1934-cü illərdə Riqada nəşr olunmuş 4 cildlik "Pasaules rakstniecības vēsture" adlı nəşrin 660 səhifəlik birinci cildinin 255-256-cı səhifələrində Nizami Gəncəvi haqqında məlumat yer almışdı. Nəşrin müəllifləri professor Rudolf Egle və latış xalq yazıçısı, ədəbiyyatşünas Andrey Upitdir. "Nizami" adlı məqalədə şairin əsərlərinin bütün Şərq ölkələrində yayıldığı və maraqla oxunduğu, yaradıcılığının lirik boyalarının çox qüvvətli olduğu göstəriliş, "Xosrov və Şirin" pemasından daha geniş bəhs olunmuşdur.

**Açar sözlər:** Nizami Gəncəvi, "Xəmsə", ədəbi əlaqə, xalq, Latviya

**Məqalə tarixçəsi:** göndərilib – 16. 09.2021; qəbul edilib – 27.09.2021

# Nizami Ganjavi in Azerbaijan-Latvian literary relations: bibliographic review

**Zakira Aliyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: zakiraalieva@rambler.ru

**Abstract.** As it is known, Nizami Ganjavi's heritage was able to attract the attention of the literary community from the time he entered Latvia in German, English and other European languages. Participating in the jubilee of the great poet, Latvian writers, who have received more information in their writings on Azerbaijan, paid more attention to Nizami's work.
During the anniversaries, the press published articles by Professor Rudolf Egle, which contained new analyzes of Nizami's life and work. The Latvian delegation included Valdis Lux, Lan Grot, Mirdza Kempe, Jan Sudrabkal, writer Adolf Talsis, critic Edgar Damburs, who dedicated poems to Nizami. Professor Karls Kraulins has believed that it's a sacred duty of the Azerbaijani people to acquaint the Latvian people with the treasury of literary and philosophical fiction of Nizami's works.

**Keywords**: Nizami Ganjavi, "Khamsa", literary reletion, nation, Latvia

Article history: received – 16.09.2021; accepted – 27.09.2021

**Giriş / *Introduction***

Azərbaycan və Latviya bir-birindən uzaqlarda yerləşir. Lakin ərazi uzaqlığına baxmayaraq, Azərbaycan və latış xalqları arasında yüzillərin sınaqlarından çıxmış bir yaddaş tarixi olmaqdadır. Azərbaycan və latış xalqlarının ictimai-siyasi, tarixi taleyində bir sıra oxşar cəhətlər mövcuddur. Əsrlər boyu davam edən müharibələr, yadelli işğalçılara qarşı qəhrəmanlıq vuruşmaları, doğma dil və milli mədəniyyət uğrunda mübarizələr – bütün bunlar hər iki xalqın həyatında xas olan və taleləri ilə bağlı olan oxşar cəhətlərdir.

**Əsas hissə / *Main Part***

Təsadüfi deyil ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və İdarə Heyətinin üzvlərinin yaydığı "Dağlıq Qarabağa sülh və ədalət" adlı bəyanatı [1] "... gəlin biz beynəlxalq ictimaiyyətlə bərabər çalışaraq keçmişin ədalətsiz miraslarını geridə qoyub qlobal çağırışlar üzərində duraraq daha yaxşı sabahlar üçün təməl qoyaq", – sözləri ilə bitirdi. Bu çağırışını imzalayanların sırasında ilk olaraq 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti olmuş, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqanın adı dururdu.

Azərbaycan və latış xalqlarını bir-birinə yaxınlaşdıran ictimai-siyasi, elmi əlaqələrin mühüm hissəsini maraqlı faktlarla zəngin olan ədəbi əlaqələr təşkil edir ki, burada dahi Vayra Vike-Freyberqanın həmsədr olduğu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin mövcudluğu da xüsusi vurğulanmalıdır. Xanım Vayra Vike-Freyberqa 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı məktubda yazırdı: "Beynəlxalq səfərlərin və üzbəüz görüşlərin qeyri-mümkün olduğu bir zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi əvvəlki illərdən fərqli olaraq çoxlu sayda həm yüksək səviyyəli onlayn görüşlərin təşkilatçısı, həm də iştirakçısı olub. BMT, Ümumdünya Elm və İncəsənət Akademiyası kimi nüfuzlu təşkilatlardan tutmuş Avropa İttifaqı ölkələri və Çinlə, eləcə də onların aparıcı institutları ilə fəal tərəfdaşlıq etmişik. Şəxsən mən bu il Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə əvvəlki illərlə müqayisədə daha çox vaxt sərf etmişəm. Əmin ola bilərsiniz ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin getdikcə daha da artan səmərəli fəaliyyəti Azərbaycanın mühüm ölkə kimi nüfuzunun yüksəlməsinə və onun dünyada maraq doğuran məsələlərdə daim yeni dostlar və tərəfdaşlar qazanmasına töhfə verməkdədir" [8].

XIX əsrin sonu – XX əsrin əvvəllərindəki milli dirçəliş, mətin mübarizə, müstəqilliyimizin və dövlətçiliyimizin itirilməsi və yenidən qazanılması kimi keşməkeşli ümumi tarixi inkişaf yolu Latviya və Azərbaycanı bir-birinə sıx şəkildə bağlayır. Bakı Rusiyanın ən iri neft mərkəzinə çevrildiyi kimi Riqa şəhəri də Rusiyanın xariclə əlaqələrini mərkəzləşdiyi iri limanlardan biri olmuşdu.

Bakı həbsxanasında yatan şair Auqusts Bertse, Latviyanın Xalq yazıçısı (1947) Balaxanı və Zığda yaşayan yazıçı Ernests Birznieks-Upitis (1871-1960), pedaqoq, leksikoqraf və naşir Yekabs Dravin-Dravnieks (1858-1927), yazıçı, jurnalist və tərcüməçi 1915-1918-ci illərdə Bakıda "Nobel qardaşları" neft sənayesi şirkətində çalışmış və ailə xoşbəxtliyini də burada tapmış Pavils Rozitis (1889-1937), Bakıda gizlənərək müəllimlik edən yazıçı Sudrabu Edjus (1860-1941; Moris Eduard Zilber), rəssam Yanis Yaunsudrabinş (1877-1962) kimi tanınmış xadimlər və Azərbaycanda özlərinə sığınacaq tapmışdılar.

Uzun illər Bakıda fəaliyyət göstərən Latış cəmiyyəti üzvləri və vətənlərini tərk etməyə məcbur qalmış latış yazıçıları, şairləri xalqımızın tarixinə, Azərbaycanda baş verən ictimai-siyasi, ədəbi-mədəni hadisələrə də biganə qalmamışdılar.

Latış ədəbiyyatının Azərbaycan oxucusuna tanıdılmasında "Ədəbiyyat qəzeti"nin rolu xüsusi qeyd edilməlidir. Qəzetin bir çox saylarında latış ədəbiyyatı nümunələri (A.Bejan, E.Damburs, M.Kempe, A.Krklis, Y.Raynis, L.Valdis, Y.Sudrabkalns və b.) və onlar haqqında azərbaycanlı ədəbiyyatşünas və tənqidçilərin məqalələri dərc edilirdi. 1940-41-ci illərdə Y.Raynisin anadan olmasının 75 illiyi bir sıra məqalələr, Latış yazıçılarının Bakıda, Azərbaycan yazıçılarının Riqada qarşılıqlı olaraq təşkil etdikləri ədəbi məclislər, müzakirələr işıqlandırılmış oldu.





Həmin illərdə "Ədəbiyyat qəzeti"nin səhifələrində Valdis Luksun "Mənə dedi yoldaşım" (ƏQ, 1941, 9 iyun), Yan Raynisin "Mülayim insan"( tərc.: A.Əlirza, ƏQ, 1940, 7 avqust), Rudzites Meynqardın "Qızıl ordu" (tərc.: R.Rza, ƏQ, 1941, 9 iyun), Vanaq Yuliyin "Aydınlıq" hekayəsi (tərc.: Əliabbas, ƏQ, 1941, 16 iyun) və s. əsərləri Azərbaycan oxucusuna təqdim edildi.

1941-ci ilin iyun ayında keçirilən Latış yazıçılarının I qurultayının işində Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak edən Süleyman Rüstəm "Riqa xatirələri"ndə (ƏQ, 1944, 10 sentyabr) yazırdı:

*Yox! Şerimə sığmaz bu yerin zövqü səfası,*
*İnsan dolu qaynar bu diyar sanki dənizdir.*
*Bir söz, bu gözəl Latviyanın abu-havası,*
*Bir körpə uşaq qəlbi qədər safdı, təmizdi...*

Mikayıl Rəfilinin təkcə bir "Latış xalqının ədəbiyyatı" məqaləsində klassik və müasir latış yazıçılarından A.Pumpur, Y.Raynis, R.Blauman, Sudrabu Ecus, L.Paeqle, A.Upit, V.Latsis və başqaları haqqında ətraflı məlumat verilirdi (ƏQ, 1941, 9; 16 iyun).

Müharibədən sonrakı illər ümumiyyətlə, ədəbi əlaqələr prosesinin bütün xarakterində ciddi dəyişikliklərlə xarakterizə olunur, ədəbiyyatın janrları və növlərinin nisbəti dəyişir, tərcümələrin sayı xeyli artırdı.

50-ci illərdən başlayaraq latış yazıçılarının bir sıra əsərləri, o cümlədən Vilis Latsisin "Balıqçı oğlu" (1954), "Qanadsız quşlar" (1956) romanları Azərbaycan dilinə tərcümə edilərək kitab halında buraxılmış, əsər haqqında Fəridə Vəzirovanın, Mehdi Məmmədovun yazıları dərc edilmişdir.

Latviyanın dövri mətbuat səhifələrində – "Karogs" ("Bayraq"), "Literatura un maksla" ("Ədəbiyyat və incəsənət") , "Padomju jaunatse" ("Sovet gəncliyi"), "Liesma" ("Alov") və s. – Məhəmməd Füzuli, Nizami Gəncəvi, Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Mir Cəlal Paşayev, İlyas Əfəndiyev, Səməd Vurğun, Rəsul Rza və digər azərbaycanlı şair və yazıçıların əsərləri latış oxucusuna tanıdılırdı.

Ə.H.Qəhrəmanovun tərtib etdiyi "Sovet xalqları ədəbiyyatı biblioqrafiyası"nda (Bakı, 1956, 132 s.) Azərbaycan-latış ədəbi əlaqələri mövzusunda xeyli biblioqrafik faktlar toplanmışdır. Filologiya elmləri namizədi Əmin Əfəndiyevin "Azərbaycan-latış ədəbi əlaqələri" mövzusunda dissertasiyası da (Bakı, 1972, 258 s.) ədəbi əlaqələrimizin tarixi üçün zəngin material verməklə yanaşı, informativ-biblioqrafik mənbə kimi də dəyərlidir.

1958-ci ildə Riqada keçirilmiş Ümumittifaq ədəbi əlaqələr müşavirəsində iştirak edən Əziz Mirəhmədov latış ziyalıları ilə görüşmüş, kitabxana və arxivlərdə olmuş, əhəmiyyətli ədəbi və tarixi faktlarla`qarşılaşmışdır. Riqada olarkən Ernest Birznek-Upitlə görüşmüş, 28 il Azərbaycanda yaşamış, xalqımız haqqında xeyli bədii və publisist əsərlər yazmış qocaman latış yazıçısının yaradıcılığını dərindən öyrənmişdir [12, s.162].

1960-cı ildə Riqada olan Bəxtiyar Vahabzadə "Şeirlər" kitabında (1961) öz təəssüratlarını nəzmə çəkərkən "Tarix kitabı" şeirində Nizaminin qəhrəmanı "Fərhad təki külüng vuran" qoca latış loğmanın canlı obrazını yaradırdı:

*Xalqın tarixini bilməyən insan*
*Özünü tanımaz, sözünü bilməz...*

Azərbaycanın yazıçı və şairləri – Mehdi Hüseyn, Süleyman Rüstəm, Osman Sarıvəlli, Bəxtiyar Vahabzadə, Cabir Novruz, Rəfiq Zəka və başqalarının Latviyadakı görüş və tədbirlərindən geniş söhbət açmaq, eləcə də, latış ədəbiyyatı haqqında fikir söyləmiş ədəbiyyatşünas alimlərimiz-

dən Mikayıl Rəfili, Pənah Xəlilov, Əziz Mirəhmədov, Hidayət Əfəndiyev, Fəridə Vəzirova, Adil Babayev, Qeybulla Rəsulov, Hüseyn Razi və başqalarının qələmindən çıxmış yüzlərlə əsərlərdən bəhs etmək olar.

Xüsusilə, "Karogs" dərgisi Azərbaycan – latış ədəbi əlaqələrinə verdiyi töhfələrlə diqqəti cəlb edir. Nizami Gəncəvinin həyat və yaradıcılığına dair yazılar daha çox bu dərgidə işıqüzü görmüşdür. Dərginin 1947-ci il birinci sayında Nizami Gəncəvinin "Leyli və Məcnun", "İskəndərnamə", "Sirlər xəzinəsi" poemalarında parçalar və qəzəllərindən bir neçəsi E.Layitis tərəfindən tərcümə olunaraq çap edilmişdir. Dərginin baş redaktoru, şair-yazıçı, ədəbiyyatşünas, alim, publisist Andris Vejansın (Andris Vējāns- 1927-2005) Nizami Gəncəvi yubileyində iştirak edən latış nümayəndə heyətinin tərkibində Azərbaycanda olmuş, Latviyaya qayıtdıqdan sonra buranın təbiətinə heyranlığını əks etdirən onlarla şeiri, xüsusilə dilimizdə "Sevirəm" rədifli musiqili və mənzərəli şeirini yazmışdır:

*Dalğalanıb Xəzər coşar arabir,*
*Haray salar mavi sular: sevirəm!* [9, s.131]

"Riqa məhəbbətim, Bakı həsrətim" (Rəfiq Zəka, Bakı, 1970, 30 iyun), – deyə Azərbaycan-Latviya ədəbi əlaqələrimizin dostluq körpüsünü salanların estafeti bu gün də davam etdirməkdədir.

Azərbaycan-Latviya dostluq körpülərinin labirintlərində dahi şairimiz Nizami Gəncəviyə aid bədii söz sərvətinin qoyduğu izlərin biblioqrafik axtarışı bizi bir sıra elmi dəyərli mənbələrlə tanış edir. Bu mənada, Latviya ədəbi-elmi mühitində Nizami Gəncəvi mövzusu ilə əlaqədar Ə.T.Əfəndiyevin "Azərbaycan-latış ədəbi əlaqələri" adlı tədqiqat işinə diqqət yetirməmiz təsadüfi deyil.

Azərbaycan və latış milli ədəbiyyatlarının qarşılıqlı ədəbi əlaqələri haqqında filologiya elmləri namizədi, tanınmış kitabxanaşünas-biblioqraf Azərbaycan Yazıçılar Birliyinin üzvü Əmin Tahir oğlu Əfəndiyevin "Azərbaycan-Latviya ədəbi əlaqələri" mövzusunda dissertasiyasının müəyyən fəsilləri və müəllifin "Nizami Gəncəvi latış dilində" başlıqlı məqaləsi maraqlı faktlarla zəngindir.

Məlum olduğu kimi, Nizami Gəncəvi irsi Latviya torpağına hələ alman, ingilis və başqa Avropa dillərində qədəm basdığı zamanlardan ədəbi mühitin diqqətini cəlb edə bilmişdi. Azərbaycan-Latviya ədəbi əlaqələrinin bu dövrünü araşdıran Ə.T.Əfəndiyev latış xalqının Nizami Gəncəvi irsi ilə tanışlığı dövrlərini şərti olaraq iki mərhələyə: 1940-cı ilə qədər və sovet hakimiyyəti qurulduqdan sonrakı dövrə ayırırdı. Eyni zamanda, dissertasiyadakı materiallara əsasən, 1940-cı illərə qədər latış ədəbi mühitində Nizami Gəncəvi irsi ilə tanışlığın ensiklopedik xarakterli məlumatlardan ibarət olduğunu görürük. Bu məlumatlar dünya ədəbiyyatına dair latış dilində nəşr edilmiş toplu nəşrlərlə, kitablarda verilən yığcam materiallarla tamamlanırdı [2].

Əlbəttə, artıq üçüncü mərhələdən – hər iki xalqın müstəqillik qazandığı müasir dövrümüzün Azərbaycan-latış ədəbi əlqələrindən geniş bəhs etməyə, araşdırmalar aparmağa ehtiyac qalmaqdadır.

1940-cı ilə qədərki dövrdə Nizami yaradıcılığı ilə tanışlıq əsasən almandilli mənbələr vasitəsi ilə baş tuta bilərdi ki, bunun da məlum səbəbləri vardır. Ə.T.Əfəndiyevin qeyd etdiyi kimi bu tanışlıq alman şərqşünası L.Hammer, alman şairi Höte, sonrakı illərdə V.Baxer, H.Ritter, H.Duda, P.Horn və b. tədqiqatçıların əsərləri ilə baş tutmuşdur.

*(Vilhelm Bacher. Nizami's Leben Und Werke Und Der Zweite Theil Des Nizamischen Alexanderbuches (1871) (German, Hardcover).- 174 p; Ferhad Und Schirin. Die literarische geschichte eines persischen sagenstoffes (monografie archivu orientalniho vol. Ii). Paperback – January 1, 1933- Herbert Duda; Paul Horn. Geschichte der persischen Literatur (German) Paperback – Lpz.1901)*

1930-1934-cü illərdə Riqada nəşr olunmuş 4 cildlik "Pasaules rakstniecības vēsture" (Dünya ədəbiyyatı tarixi) adlı nəşrin 660 səhifəlik birinci cildinin 255-256-cı səhifələrində Nizami Gəncəvi haqqında məlumat yer almışdı. Nəşrin müəllifləri professor Rudolf Egle (1889-1947) və latış xalq yazıçısı, ədəbiyyatşünas Andrey Upitdir (1877-1970). "Nizami" adlı məqalədə şairin əsərlərinin bütün Şərq ölkələrində yayıldığı və maraqla oxunduğu, yaradıcılığının lirik boyalarının çox qüvvətli olduğu göstərilmiş, "Xosrov və Şirin" pemasından daha geniş bəhs olunmuşdur.

*(Pasaules rakstniecības vēsture : Rudolfs Egle un Andrējs Upīts. 1. Rūdolfs Egle Rīgā Gulpis (1930)/[1931]; Latviešu konversācijas vārdnīca. Grāmatu apgādniecība A. Gulbis Rīgā.1937. 1040 p.)*

Bununla belə, Nizami Gəncəviyə həsr olunmuş məqalədə yanlışlıqlara yol verilmiş, Nizami fars şairi kimi təqdim edilmiş, şairin həyatı İran tarixi ilə əlaqələndirilmişdir. "Latviešu konversācijas vārdnīca" (Latış konversasiya lüğəti) – 21 cildliyinin 15-ci cildində Nizami haqqında yığcam məlumat yer almışdır. Lakin burada da Nizami İran şairi kimi təqdim olunmuşdu.

1970-ci ilin fevralında elmi ezamiyyət zamanı "Pasaules rakstniecības vēsture" (Dünya ədəbiyyatı tarixi) adlı nəşrdəki məqalənin müəllifini aydınlaşdırmağa çalışan ədəbiyyatşünas Ə.T.Əfəndiyev professor Rudolf Eglenin qardaşı, Əməkdar elm xadimi və tanınmış biblioqraf Karl Eglenin köməyi ilə Andrey Upit olduğu aydınlaşdırılmışdır. Azərbaycan ədəbiyyatı ilə bağlı birinci cilddə getmiş hər üç məqalənin müəllifi olan Andrey Upitlə, daha sonra, professor K.Kraulin, yazıçılar A.Bejan, Y.Sudrabkaln, V.Lukss və b. görüşmüş, Nizami Gəncəvi yaradıcılığının Latviyada tanınmasına dair fikirlərini və şairin milli mənsubiyyəti ilə bağlı yazılanlara iradını bildirmişdir.

Dahi şairin 800 illik yubileyinin keçmiş SSRİ miqyasında, sovet respublikalarında təntənəli qeyd edilməsi latış xalqının da Nizami Gəncəvi irsi ilə tanışlığında yeni bir səhifə açmış oldu. Dahi şairin yubileyində iştirak edərək daha geniş məlumat əldə edən latış yazıçıları Azərbaycan haqqında yazılarında Nizami yaradıcılığına daha geniş ayırdılar.

Yubiley günlərində mətbuatda professor Rudolf Eglenin Nizaminin həyat və yaradıcılığına dair yeni təhlillərini özündə əks etdirən məqalələri dərc edildi, şairin əsərlərinin tərcüməsi ən görkəmli latış şairlərinə həvalə edilmiş oldu.

Yubileydə iştirak etmək üçün Azərbaycana gələn latış nümayəndə heyətinin tərkibində Valdis Lukss, Lan Qrot, Nizamiyə şeirlər ithaf etmiş Mirdza Kempe, Yan Sudrabkal, yazıçı Adolf Talsis, tənqidçi Edgar Damburs və b. var idi.

Yeri gəlmişkən, diqqətə çatdıraq ki, Ə.T.Əfəndiyev "Azərbaycan-latış ədəbi əlaqələri" mövzusunda dissertasiyasında Nizami Gəncəvinin yubileyi günlərində Latviyada şairin bircildlik əsərlərinin çap edilməsi haqqında (s.79) Ə.H.Qəhrəmanovun tərtib etdiyi "Sovet xalqları ədəbiyyatı biblioqrafiyası"nda verilmiş məlumatın yanlış olduğunu göstərmişdir.

Görkəmli latış ictimai xadimi, şair, yazıçı, jurnalist Valdis (Voldemars) Lukss (1905-1985) "Nizaminin vətənində", "Nizami latış dilində" məqalələrinin müəllifidir. Yazıçı bir neçə dəfə Azərbaycana gəlmiş, xalqımızın qonaqpərvərliyinə valeh olmuş, bu haqda müxtəlif bədii əsərlər, yol qeydləri və publisistik məqalələr dərc etdirmiş, şairlərimizin əsərlərini latış dilinə tərcümə etmişdir. Yazıçının Azərbaycanla ilk qiyabi tanışlığı, özünün dediyi kimi hələ müharibədən xeyli əvvəl, Mirzə Şəfi Vazehin şeirlərinin mütaliəsi ilə başlanmışdır. Əsərləri Azərbaycan dilinə Ə.Cəmil, N.Xəzri, H.Abbaszadə, Ə.Ziyatay tərəfindən tərcümə edilmiş yazıçının Azərbaycanla əyani tanışlığı 40-cı illərə, Nizaminin 800 illik yubileyi günlərinə təsadüf edir. V.Lukss "Nizaminin vətənində" məqaləsində yazırdı: "Biz latışlar Şərq poeziyasının günəşi olan Nizami Gəncəvi kimi dahi bir sənətkarın son dərəcə yüksək və zəngin ədəbi irsi ilə tanış ola bildik. Bu böyük şairin dünya ədəbiyyatı xəzinəsinə nadir inci kimi daxil olan poetik əsərləri Azərbaycan xalqının nə qədər yüksək mədəni bir irsə malik olduğunu təsəvvürümüzdə aydın canlandırır" [30].

Ədəbiyyatşünas, pedaqoq Edgar Damburs və ədəbiyyatşünas, tərcüməçi, professor Rudolf Eglenin yazılarında [23; 24; 25] da Nizami milli mənsubiyyətinə və irsinə obyektiv yanaşma öz ifadəsini tapmış oldu. Rudolf Egle 1947-ci ildə "Karoqs" dərgisinin 9-cu sayında dərc olunmuş "Nizaminin poemaları" adlı məqaləsində yazırdı: "Fars dilində yazmasına baxmayaraq, bu gəncəli şair daim öz xalqı ilə oturub-durmuş, ondan ilham alaraq yazıb yaratmışdır... Nizami elə əsərlər yaratmışdır ki, əsrlərin tufanları onların bədii dəyərini azalda bilməmişdir" [25].

Bakıda keçirilən konfransda iştirak edən latış nümayəndə heyətinin ümumi fikrini ifadə edən Rudolfs Egle (1889-1947) Azərbaycan xalqının keçmişi ilə indi daha yaxından tanış olduqlarını bildirirdi. Rudolf Egleyə görə, Nizaminin "Sirlər xəzinəsi" kimi hələ heç kim feodalizmi belə kəskin tənqid edən əsər yazmamışdı.

Ədəbiyyatşünas, pedaqoq Edqar Dambursun (1910-1981) Nizami Gəncəvi yaradıcılığının Latviyada tanınmasında xidməti böyükdür [18; 19; 20; 21]. Nizaminin yubileyində Bakıya gələn ilk dəfə E.Dambursu köhnə dost kimi qarşılanması heyrətləndirmişdi. "Azərbaycan xalqının böyük şairi Nizami", "Nizaminin vətənində" məqalələrində şair haqqında zəngin məlumat verən müəllif dünyaca məşhur bir şairin yaradıcılığı ilə latış xalqının indiyə kimi yaxından tanış olmadığına təəssüflənmişdi. Eyni zamanda, yubiley zamanı əldə etdiyi məlumatların Nizami Gəncəvi haqqında nöqsanlı yazıların alt-üst edilərək, Latviyada tanınmasında kömək edəcəyini vurğulamışdı. "Nizaminin vətənində" məqaləsində [20]. "Xəmsə" müəllifinin öz ana dilində yazıb yarada bilməməsini ürəkağrısı ilə qeyd edirdi, çünki əsrlərlə alman işğalı görmüş bir xalqın nümayəndəsinə bu dərd tanış idi.

Latış şairəsi, Latviya Elmlər Akademiyasının müxbir üzvü Mirdza Aura Alma Kempe (1907-1974) (daha sonra – Adamsone və Naikovska) – poeziya mövzusu əsasən sevgi, həyatın mənasının axtarışı, insanın daxili aləmi olan ən parlaq Latviya şairlərindən və tərcüməçilərindən biridir. Mirdza Kempe Nizaminin qəhrəmanlarını lirik səpkidə nəzmə çəkərək, Xosrovu qəhrəmanlıq simvolu kimi ürəklərdə, Məcnunun nalələrinin mahnılarda, Leylinin incəliyinin rəqslərdə, Şirinin xalça naxışlarında yaşadığını, Fərhadın isə külüngü ilə Sumqayıt kimi şəhərlər saldığını yazırdı [32; 33].

*Sən isə yaşayırsan Nizami! Kəlamından hər kəs söz açar,*
*Əsərlərin Göygöl tək hər yana şəfəq saçar* [9, s.162].

Yanis Sudrabkalns (1894-1975) – Müharibədən sonrakı illər əsasən sülhü tərənnüm edən şeirlər yazan şair "Nizami" şeirində şairin yubiley şənliklərini təsvir edir, Azərbaycana üz tutan insan karvanlarına diqqət çəkərək, Nizaminin dünyada neçə dildə ünsiyyətə yol açdığını vurğulayır [38].

Latviya Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru Karls Kraulinsin (1904-1981) 1969-cu ildə Riqada nəşr olunmuş "Nizami və onun müasirləri" kitabı oxucularını, latış elm-ədəbi mühitini dahi şairin mənsub olduğu xalqın ədəbiyyatı ilə daha yaxın tanışlığına yol açmış oldu. Kitabın "İlk Azərbaycan şairləri" başlıqlı birinci bölməsində Qətran Təbrizi, Fələki Şirvani, Məhsəti Gəncəvi, Əfzələddin Xaqanidən bəhs edən müəllif, ikinci bölməni tamamilə Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr etmiş, M.Kempe və Y.Plaudis tərəfindən edilmiş tərcümələrdən nümunələr vermişdir. Latış professoru Nizami haqqında mülahizələrini "Şairin uşaqlığı", "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Poemanın sənətkarlıq xüsusiyyətləri", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə", "Lirika", "Şairin ölümündən sonra" adlı başlıqlar altında təqdim edir. İlk dəfə kitaba E.Lejitis tərəfindən tərcümə edilmiş "Xosrov və Şirin" poemasından "Fərhadla Xosrovun deyişməsi" daxil edilmişdir. Professor Karls Kraulins özü müsahibələrindən birində Nizaminin əsərlərinin ədəbi-fəlsəfi fikilər xəzinəsini latış xalqına tanıtmaq yolunda atılan addımları Azərbaycan xalqı qarşısında müqəddəs bir vəzifə olduğunu qeyd edirdi [27].

"...Mən belə düşünürəm ki, Nizami anası, övladları, yaxınları ilə Azərbaycan dilində danışsa da, ilham pərisi ilə farsca danışırdı. Onun əsərlərinin orijinalı, əsl mətni də yaşamalı və məktəblərdə öyrədilməlidir" [17], – bu fikri tanınmış latviyalı şair, tərcüməçi, linqvist, türkoloq, Latviya Elmlər Akademiyasının fəxri akademiki Uldis Berzinş (Uldis Egīls Valdemārs Bērziņš) 30 il sonra yenidən Nizaminin yubileyinə gəldiyi günlərdə müsahibəsində bildirmişdi.

Uldis Berzinş Azərbayjan ədəbiyyatı və mədəniyyətinin pərəstişkarıdır. O, xalqımızı, ədəbiyyatımızı böyük məhəbbətlə sevir. Dəfələrlə respublikamızda, Bakı və Gəncədə, Qazax və Lənkəranda, Şamxor və Salyanda olmuş latış şairi xalqımızın müxtəlif təbəqələri ilə tərcüməçi olmadan canlı ünsiyyətə girmiş, Qız qalası və Şirvanşahlar sarayını maraqla seyr etmiş, Nizami və Cavad xanın vətənini addım-addım gəzmişdir. Lənkəranda olarkən, Latviyanın faşistlərdən azad edilməsində böyük xidməti olmuş Həzi Aslanovun abidəsi qarşısında baş əymiş, Qazaxda görkəmli şairimiz Səməd Vurğunun heykəli önündə şeir demiş, aşıqların çıxışlarına qulaq asmışdır.





Professor Zümrüd Dadaşzadə Riqada nəşr olunan "Açıq şəhər" jurnalının baş redaktoru Tatyana Fastın çeşidli suallarını cavablandırarkən Azərbaycan ədəbiyyatının dostu, şair, mütərcim Uldis Berzinşin xidmətlərini xüsusi vurğulayır. Latış oxucusunun məhz onun tərcüməsində "Kitabi-Dədə Qorqud" eposunu, habelə bir sıra şairlərin (M.Müşfiq, S.Vurğun, R.Rza, M.Araz və b.) əsərlərini oxumaq imkanı əldə etdiyini qeyd edir. Müsahibədə həmçinin Latviya Dövlət Universitetinin akademik kitabxanasının nəzdində yaradılan Azərbaycan İnformasiya mərkəzi və burada müvəffəqiyyətlə fəaliyyət göstərən Azərbaycan dili kursları da ədəbi əlaqələrimizin yeni səhifələrinin yazılmasına xidmət kimi dəyərləndirilir [15].

Latviya Respublikası Seyminin Azərbaycanla əməkdaşlıq üzrə dostluq qrupunun sədri Romans Naudinş Nizaminin yurdunun – Gəncə şəhərinin raket atəşinə tutulmasını beynəlxalq hüququn kobud şəkildə pozulması və terror aktı kimi qəti şəkildə pislədi. Bu yanaşma əsrlər boyu öz elmi-fəlsəfi dəyərini, poetik təravətini itirməyən Nizami Gəncəvi adına, yurduna Azərbaycan və latış xalqlarının ədəbi-mədəni əlaqələrinə bir ehtiramdır.

## Nəticə / *Conclusion*

Azərbaycan və Latış xalqlarının milli ədəbiyyatlarının qarşılıqlı əlaqələrinin bu günümüzə qədər olan tarix səhifələrinin biblioqrafik mənzərəsi (məqalənin sonunda mövzu ilə bağlı biblioqrafik siyahı verilir – Ə.Z.) Nizami Gəncəvi irsinin latış oxucularına çatdırılmasında Latviya tərcüməçilərinin, şair və yazıçılarının, ədəbiyyatşünaslarının işinin davamlı olduğu haqda qənaətimizi təsdiq edir.

## Ədəbiyyat / *References*


1. "Dağlıq Qarabağa sülh və ədalət" adlı bəyanat...https://azertag.az/xeber/-Nizami_Gencevi_Beynelxalq_Merkezinin_hemsedrleri_ve_Idare_Heyetinin_uzvleri_Dagliq_Qarabaga_sulh_ve_edalet_teleb_edirler-1540977
2. Əfəndiyev Əmin. Azərbaycan-Latviya ədəbi əlaqələri. Namizədlik dissertasiyası. Bakı, 1974.
3. Əfəndiyev Əmin. Dərin məhəbbətlə (Latış şairi və tərcüməçisi Uldis Berzinş haqqında) // 1975, 16 avqust.
4. Əfəndiyev Əmin. Dostluq töhfələri (Latış yazıçılarının Azərbaycana həsr etdikləri bədii əsərlər) // "Ədəbiyyat qəzeti", 1971, 27 fevral.
5. Əfəndiyev Əmin. Nizami Gəncəvi latış dilində // Azərbaycan EA Xəbərləri, ƏDİ ser., 1973, №1.
6. Həmzəyev Mahir. Latviya-Azərbaycan mədəni və mənəvi bağları // "525-ci qəzet", 2016, 9 yanvar.
7. Hidayət Ə. Latış yazıçıları qurultayının açılışı // "Ədəbiyyat qəzeti", 1941, 16 iyun.
8. Xanım Vaira Vike-Freiberga Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı məktub // "525-ci qəzet", 2020, 23 dekabr.
9. Kempe Mirdza. Sevirəm /tərc. Ə.Z.Cəfərli // "Azərbaycan", 1975, №9.
10. Latviya Prezidenti Valdis Zatlersin Azərbaycana rəsmi səfəri // "Azərbaycan", 2009, 12 avqust.
11. Latviya Seyminin deputatı Gəncənin raket atəşinə tutulmasını pisləyib // "Azərbaycan" qəzeti, 2020, 18 oktyabr.
12. Mirəhmədov Əziz. Dostluq körpüsü salanlar (Azərbaycan-latış ədəbi əlaqələrinə dair qeydlər) // "Azərbaycan", 1960, №1.

13. Paşayeva Qənirə. Tarixə adını yazan qadınlar... https://modern.az/az/news/13014/isgala-gore-terk-etdiyi-olkenin-55-il-sonra-prezidenti-oldu-hekayet-fotolent
14. Rəfili Mikayıl. Latış xalqının ədəbiyyatı // "Ədəbiyyat qəzeti", 1941, 9; 16 iyun.
15. Riqanın "Açıq şəhər" jurnalı Azərbaycan mədəniyyətindən yazdı // "525-ci qəzet", 2020, 27 sentyabr.
16. Sovet xalqlarının iftixarı // "Azərbaycan müəllimi", 1947, 26 sentyabr.
17. Uldis Berzinş: 30 il sonra yenidən Nizaminin yubileyinə gəlmək mənim üçün çox xoşdur // "Mədəniyyət", 2012, 17 oktyabr.
18. Damburs Edgars. Azerbaidzanas // Literatūra un Makslas. 1947, gads, 11. jūnijs.
19. Damburs Edgars. Lielais Azerbaidžanu tantas dzejnieks Nisami // Cisa, 1947, 21. sept.,
20. Damburs Edgars. Nisami zeme // Padomju literatūra, 1947, 27. jūnijs.
21. Damburs, Edgars. Sarunas literatūrā. Rīga: Liesma, 1970, 5. lpp.
22. Efendijevs Amin. Stranitsı drujbı (Azerbaidžāna-Latvija: literaturnıye svyazi) // Padomju Latvija,1967, №9. maijs.
23. Egle Rūdolfs. Azerbaidzanas dzeinikam Nisami veltita konference Baku // Latviyas PSR Zinstnu akad. Vestis, 1947, 3.
24. Egle Rūdolfs. Dzejnieks Nisamijaunakas petniecibas gaisma // Literatura un Makslas, 1947, 27. jūnijs.
25. Egle Rūdolfs. Nisami dzejoļi // Karogs, 1947, № 9.
26. Klava A. Azerbaydzaniesu tautas poezijas lepnums // Literatura un Makslas, 1947, 26. sept.
27. Krauliņš Kārlis. Nizami un viņa laikabiedri: (divas nodaļas PSRS tautu literatūrā) P. Stučkas LVU Vēstures un filoloģijas fakultātes Latviešu literatūras katedra / - Rīga, [P.Stučkas Latvijas Valsts universitāte], 1969.
28. Laimigapilsetaş fragments. Nu dzejoļi "İskender-name" Atdzey J. Plaudis M. // Karogs, 1947, № 9.
29. Lielajs Azerbaidžanu tautas dzejnieks // Pionieris, 1947, 27 sept.
30. Lukss Valdis. Nisami zeme // Padomju literatūra, 1947, 27. jūn.
31. Milas gazelas Atdzey J. Plaudis M. // Karogs, 1947, №9.
32. Mirdza Austra Alma Ķempe. Azerbaidzanas dzeinikam Nisami // Karogs, 1947, №11.
33. Mirdza Austra Alma Ķempe. Mana tautiete .... Dzejolis ... https://azerhistory.com/-?p=32409Uber
34. Nisami. Laisiga plsets, frag, no poeas 'Iskaqndar-name' Atdzej, J. Plaudis // Karogs, 1947, №9.
35. Nisami. Levādes dzejoļi 'leili un Medznuns', Atdzej, M. Kempe // Karogs, 1947, №9.
36. Padomju tautu lirika: Antaloģija / Sakārt.: J.Plaudis; [J.Sudrabkalna iev. 5.-16.
37. Stasts in caru-apspiedeja un taialgacilveks no poems 'Noslepus kratave Atdzej, J. Plaudis // Karogs, 1947, №9.
38. Sudrabkalns Yan. Nisami // Karogs, 1947. gads, №11.
39. Tihonovs N. Nizami // Padomju Jaunstne, 1947, 23. sept.
40. Vītols, Herberts. Nizami un Ivans Franko. Krauliņš, K.Ivans Franko: Nod. lekciju kurss "PSRS tautu literatūra". Rīga, Nizami Eyanyavi 533 1968 [uz vāka 1969] / Herberts Vītols.-Karogs, 1970, №3.






## Низами Гянджеви в азербайджанско-латышских литературных связях: библиографический взгляд


**Закира Алиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви, НАНА. Азербайджан.
E-mail: zakiraalieva@rambler.ru



**Резюме.** Несмотря на существенную территориальную отдалённость, между азербайджанским и латвийским народами наблюдается проверенная веками многовековая историческая память. В судьбе азербайджанского и латышского народов существует общественно-политической и историческая схожесть. Многовековые войны, героическая борьба с иноземными захватчиками, за утверждение родного языка и национальной культуры – всё это объединяет судьбы в жизни двух народов. В азербайджанско-латышские литературные связи вносит дар издаваемый журнал "Карогс". В нём часто печатаются интересные сведения о жизни и творчестве Низами Гянджеви. В первом номере журнала в 1947 году были напечатаны переведённые Е.Лаитисом части и газели из поэм Низами Гянджеви "Лейли и Меджнун", "Искендернаме", "Сокровищница тайн". В юбилейных встречах в честь Низами в Азербайджане в составе латышской делегации участвовал публицист и учёный-литературовед Андрис Вежанс.

В 1930–1934 годах в Риге было опубликовано 4-томное издание под названием "Pasaules rakstniecības vēsture". В первом номере, состоящем из 400 страниц, на страницах 255–256 был напечатан материал о Низами Гянджеви. Его авторами были профессор Рудольф Эгле и востоковед, народный писатель Латвии Андрей Упит. В статье под названием "Низами" говорилось о всеобщей любви и широком распространении произведений поэта на всём Востоке, содержащих проникновенное лирическое звучание. Обширно ведётся повествование о поэме "Хосров и Ширин".


**Ключевые слова:** Низами Гянджеви, "Хамсе", литературные связи, народ, Латвия